# "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1361) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci maddəyə "Mülki Məcəlləsindən," sözlərindən sonra "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunundan," sözləri əlavə edilsin.

2. 10-cu maddə üzrə:

2.1. 10.1-ci maddənin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin;

2.2. 10.2-ci maddənin birinci cümləsində "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin;

2.3. 10.4-cü maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankına" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2023-cü il*

Azərbaycan.- 2023.- 2 avqust.- S. 11.